**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ**

# ƏMRİ

№ 08 «22» 01 2019 cu il

**Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən göstərilən dövlət xidmətlərinə dair "ASAN xidmət" indeksi üzrə qiymətləndirmə qaydalarına uyğun olaraq RİH-in rəsmi saytında "Online əlaqə" bölməsinin və İşçi qrupunun yaradılması haqqında**

"Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Kollegiyasının 17.10.2016-cı il tarixli 1/1-06 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət xidmətlərinin "ASAN xidmət" indeksi üzrə qiymətləndirilməsi Qaydaları"na uyğun olaraq müəyyən edilmiş meyarlar üzrə qiymətləndirmə proseduru həyata keçirilir. 2017-2018-ci illər üzrə qiymətləndrimənin nəticələrinə dair Agentlik tərəfindən daxil olmuş arayışda növbəti qiymətləndirmə dövrünədək, irad bildirilən çatışmazlıqlar üzrə təkmilləşdirmələrin aparılması təklif olunmuşdur.

Bu məqsədlə Binəqədi Rayon İcra Hakimiyyətinin rəsmi saytında göstərilən dövlət xidmətləri üzrə onlayn əlaqə vasitəsi ilə məlumat alma imkanının yaradılması və bu işə məsul şəxslərin müəyyən edilməsi məqsədəmüvafiq hesab olunur.

Qeyd edilənləri nəzərə alaraq və "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin 6.8-ci bəndinə uyğun olaraq:

## ƏMR EDİRƏM:

1. Binəqədi Rayon İcra Hakimiyyətinin rəsmi saytında "Dövlət xidmətlərinin "ASAN xidmət" indeksi üzrə qiymətləndirilməsi Qaydaları"na uyğun olaraq "Onlayn əlaqə" bölməsi yaradılsın.

2. RİH tərəfindən həyata keçirilən xidmətlər üzrə müraciət edən şəxslər tərəfindən "Onlayn əlaqə" bölməsi vasitəsi ilə muraciet@binegedi-ih.gov.az electron poçt ünvanına daxil olan sualların cavablandırılması məqsədi ilə aşağıdakı tərkibdə İşçi qrup yaradılsın:

İşçi qrupun rəhbəri:

| | |
|---|---|
| Səfərov Anar Bahadur oğlu | Binəqədi Rayon İcra Hakimiyyəti "Sakinlərin Müraciət Xidməti - 1646"nın rəisi |

İşçi qrupunun üzvləri:

| | |
|---|---|
| Abbasova Səbinə Rafiq qızı | "Sakinlərin Müraciət Xidməti - 1646" – məsləhətçi |
| Əbdürəhmanova Turan Şahin qızı | "Sakinlərin Müraciət Xidməti - 1646" – məsləhətçi |
| Əliyev Seymur Xanlar oğlu | "Sakinlərin Müraciət Xidməti - 1646" – məsləhətçi |

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili" Qaydaların tələbləri nəzərə alınmaqla, işçi qrupunun üzvlərinin vəzifə təlimatı təsdiq edilsin (*vəzifə təlimatı əlavə edilir*).

4. İşçi qrupunun üzvlərinə tapşırılsın ki, müəyyən edilmiş xidmətlər üzrə bölməyə daxil olmuş müraciətlərlə bağlı 5 dəqiqə müddətində aidiyyatı struktur bölmənin əməkdaşlarından zəruri məlumatların alınmasını və müraciətin cavablandırılmasını təmin etsinlər.

5. RİH başçısı Aparatının struktur bölmələrinin rəhbərlərinə, RİH başçısının inzibati və qəsəbə inzibati ərazi dairələri üzrə nümayəndələrinə, Rayon MKTB-nin rəisinə və ikili tabelikdə olan qurumların rəhbərlərinə tapşırılsın ki, daxil olmuş müraciətlərlə bağlı İşçi qrupun üzvlərinin vaxtında, çevik və dəqiq məlumatlandırılmasını təmin etsinlər.

6. İşçi qrupun rəhbəri Anar Səfərova tapşırılsın ki, "Online əlaqə" bölməsi vasitəsi ilə göstərilən xidmətlərlə bağlı gündəlik məlumatların müəyyən edilmiş formaya uyğun olaraq növbəti iş gününün əvvəlində Aparatın İnformasiya təminatı və təhlil sektoruna çatdırılmasını təmin etsin (*forma əlavə edilir*).

7. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti

**Elxan Allahverdiyev**